**N.M.ƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*
*e-mail: nur.mikayil@gmail.com*
**:https://orcid.org/0009-0000-2512-0744**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.2.268**

# ALİ MƏKTƏBLƏRİN AŞAĞI KURSLARINDA İNGİLİS DİLİNDƏ TAPŞIRIQ ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏ METODİKASI

***Xülasə.*** *Məqalədə dil öyrənmədə müasir yanaşmalardan biri olan tapşırıq əsaslı dil təlimindən bəhs edilir. Tapşırıq əsaslı dil təlimi xarici dillərin tədrisində mühüm rola malikdir. Sözügedən tədris metodunun ən faydalı tərəflərindən biri dilöyrənənləri təcrübi kontekstlərə alışdırmaqdır. Bu zaman təhsilalanlar real dünyaya dair tapşırıqlara fokuslanmaqla, öz dil bacarıqlarını inkişaf etdirirlər. Bu tapşırıqlar öz növbəsində gündəlik situasiyalara uyğun və relevant hesab edilir. Burada dilöyrənənlər öz dil səriştələrini mənalı oxu, yazı, dinləmə, danışıq, eyni zamanda bu fonda interaktiv tapşırıqlar vasitəsilə genişləndirmək imkanına malikdirlər.*
*Beləliklə, adıgedən təlim metodu tədrisin səmərəliliyinin artırılmasında geniş imkanlar təklif edir.*

***Açar sözlər:*** *tapşırıq, öyrənmə, inteqrasiya, səriştə, metod*

Qeyd edək ki, yuxarıda bəhs etdiyimiz təlim metodu əsasən üç mərhələni əhatə edir.
Bunlar aşağıdakılardır:
– tapşırıqdan əvvəl
–tapşırığın icrası
– tapşırıqdan sonra

Bu mərhələlərin hər biri öyrənməni və yaddasaxlamanı optimallaşdırmaq üçün nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, tapşırıq əsaslı təhsil sorğu əsaslı dil təliminə bilavasitə uyğunlaşdırılmışdır.

Onu da vurğulayaq ki, D.Nunan (2007) tapşırıq əsaslı dil təlimindən bəhs edərkən 7 prinsipin adlarını qeyd edir.

Onları təqdim edirik:

1. Dəstək( Scaffolding)
2. Tapşırıqdan asılı (Task dependency)
3. Təkrar (Recycling)
4. Fəal öyrənmə (Active learning)
5. İnteqrasiya (Integration)
6. Yaradıcılıq (Creativity)
7. Əks etdirmə (Reflection) [5].

Yeri gəlmişkən, vurğulayaq ki, tapşırıq əsaslı dil tədrisi tapşırıq əsaslı təlimat kimi də nəzərdən keçirilir.

Eyni zamanda öyrənilən dildə mənalı və rəngarəng tapşırıqların tamamlanmasında autentik materialların istifadəsinə fokuslandırılır. Belə tapşırıqlardan bəzilərinin adlarını qeyd edirik. Çünki bunlar real həyati situasiyalarla bilavasitə uyğunluq təşkil etməkdədir.

– həkimə getmək;
– müsahibə vermək və ya almaq;
– xidmət mərkəzini köməyə çağırmaq və s.

Yuxarıda adlarını qeyd etdiyimiz mərhələlərin mahiyyətinə nəzər salaq.

*Tapşırıqdan əvvəl (pre-task)*

Bu mərhələ ərzində müəllim, əgər ehtiyac yaranarsa, bütöv dərsi həmin tapşırıqlara həsr edir. Eyni zamanda təhsilalanları bunları həll edərək, öhdəsindən gəlməyə ruhlandırır. Təhsilalanlara tapşırıqların həlli zamanı hansı gözləntilərinin olması barədə məlumat verir. Bu zaman verbal izahlar təqdim edilərək, müəllim tərəfindən nümunələr əsasında dəstəklənməli və ya əvvəlki tapşırıqlar əsasında nümunələr təqdim edilməlidir.

Növbəti mərhələdə onlara təlimatları verməli, necə yanaşma həyata keçirmək barədə tövsiyələr təqdim etməlidir. Daha sonra təhsilalanlara öz həll edəcəyi tapşırıqları şəxsi bilik və həyati təcrübələrinə əsaslanaraq yazmağı tapşırmalıdır.

*Tapşırıq zamanı (Task)*

Xüsusilə vurğulayaq ki, bu mərhələ sözügedən tədris metodunda ən mühüm mərhələ hesab edilir.

Bu mərhələdə də müəllim tam dərsi, ehtiyac yaranarsa, tapşırıqların yerinə yetirilməsinə həsr etməlidir. Bu zaman tələbələr müxtəlif səpkidə mövcud olan tapşırıqlar üzərində işləməyə başlayırlar. Bu cür fəaliyyətlər adətən qrup və ya cütlərlə həyata keçirilir.

Eyni zamanda bu əsas mərhələnin reallaşdırılması zamanı demək olar ki, öyrənilən dilin istifadəsinə tam şəkildə yer verilməlidir.

Bundan əlavə, təhsilalanlar öyrənmək istədiklərini hiss etməlidirlər. Bu anlamda öyrənilən dildən istifadəyə ehtiyacın olduğu qənaətinə gəlməlidirlər. Bu da bütövlükdə, tapşırıqların həlli üçün nəzərdə tutulur. Bu zaman adətən müəllim iş prosesinə qoşulur. Burada təhsilverənlər dilöyrənənləri düzgün istiqamətləndirir, dəstək üçün ehtiyac yarandıqda köməklik göstərir.

Beləliklə, müəllim dəstəkləyici funksiyanı yerinə yetirir.

*Tapşırıqdan sonra ( The Review or post-task)*

Bu mərhələnin gedişində artıq yerinə yetirilmiş tapşırıqlar müəllim tərəfindən yoxlanılır, müəyyən müzakirələr aparılır, buraxılmış səhvlər gözdən keçirilir.

Bu mərhələnin maraqlı tərəflərindən bəziləri budur ki, bu zaman təhsilalanlar bir-birlərinin işlərini yoxlayır, daha sonra müəllimin yoxlamasına təqdim edirlər.

Onu da qeyd edək ki, burada səhvlərin düzəldilməsi zamanı izahatlar verilməli, fidbək müzakirələri aparılmalı, müstəqil fikir və rəylərin bildirilməsi həyata keçirilməlidir.

Beləliklə, adını qeyd etdiyimiz bu mərhələ dilöyrənənlərə özlərini ifadə etmək, fikirlərini yerinə yetirdikləri tapşırıqlar fonunda əks etdirmək, gələcək uğurlara doğru istiqamətlənməkdə geniş imkanlar və fürsətlər təklif edir.

Tapşırıqların çətinlik dərəcəsi ilə bağlı D.Nunanın bir sıra araşdırmaları vardır və tədqiqatçı bu aspektdə təhlillər həyata keçirmişdir.

Onun fikrincə, çətinlik səviyyəsi artırılmış tapşırıqlarda tələbələr bir sıra problemlərlə üzləşirlər.

Problem yarada biləcək amilləri D.Nunan aşağıdakı formada təsnifləndirir:

1. Tapşırığın mətninin uzunluq dərəcəsi;
2. Tapşırıq mətnindəki sıxlıq (əhatə olunan məlumatlar);
3. Tapşırıq mətnindəki mövcud lüğət tərkibi;
4. Dinləmə mətnindəki sürət tempi və sayı [4, s.123].

Qeyd edilir ki, tapşırığın mətninin uzunluq dərəcəsi təhsilalanlar üçün ciddi hesab edilən çətinliklərlə müşayiət oluna bilər. Çünki mətnin həcmcə böyüklüyü onun əhatə etdiyi məlumatların həcminin də geniş olmasını diktə edir [4, s.126 ].

Tapşırıq mətnində verilmiş çoxlu məlumatlarla üzləşən təhsilalanlarda tapşırığın həlli istiqamətində qorxu, həyəcan hissi yarana bilər.

Bundan əlavə, tapşırıq mətnindəki istifadə edilmiş sözlərdəki çətinlik səviyyəsinin yüksək olması və ya tələbələrə yeni olan sözlərin işlədilməsini tapşırmaq onlarda çətinliklərə yol açan amillərdəndir.

Tapşırıq əsaslı dil tədrisində təhsilverənlərin ən başlıca rolu təhsilalanları yaxından tanımaqdan, daha dəqiq desək, onların bilik səviyyələrindən xəbərdar olmaqdan ibarətdir. Çünki yalnız tələbəsini tanıyan müəllim onların cari bilik səviyyəsinə uyğun tapşırıq seçə bilər.

Təhsilalanların bilik, bacarıq və vərdişlərinə yönəldilən tapşırıqlar bəzən təkcə bir dilöyrənəni deyil, tələbə qrupunun da diqqətini cəlb edə bilər. Bu zaman müəllimin vəzifəsi çətinləşir. Belə ki, bəzi tapşırıqlar növbəti dərsdə, bəziləri isə bir neçə həftə ərzində yerinə yetirilə bilər. Öyrənmə çətinliyi çəkən tələbə üçün tapşırıqlar nəzarət altında və yoxlama şəraitində aparılan zaman uğurla nəticələnir.

Tapşırıq əsaslı dil tədrisi bir çox metodistlərin tədqiqat mövzusuna çevrildiyini artıq qeyd etdik.

Buradan aydın olur ki, metodistlərin fərqli yanaşmaları olmuş və bu təlim metodunun əsasında dayanan "tapşırıq" termininə fərqli təriflər verilmişdir.

Tədqiqatçıların fikrincə, tapşırıq real həyati situasiyalara əsaslanan bütün növ ünsiyyət formalarını əhatə edir.

Onlardan bəzilərini təqdim edirik.

– bir hasarın rənglənməsi,

–gediləcək yerin istiqamətinin öyrənilməsi,

–mağazadan uyğun ölçüdə ayaqqabı istənilməsi,

–kitabxanadan kitab götürülməsi,

–hava limanından bilet sifarişi,

–yolu keçən şəxsə yardım edilməsi,

–mehmanxanadan otaq rezervi və s.

Bütün bunlar əslində elə tapşırığın özü hesab edilir.

Başqa sözlə desək, tapşırıq insanların adi gündə qura bildikləri bütün söhbət və ya danışıqların məcmusu kimi dəyərləndirilir.

Tapşırıq əsaslı dil tədrisinin əsası tədris zamanı müxtəlif tapşırıqlardan istifadə edilməklə, dilöyrənənləri xarici dildə danışmağa sövq etməkdir.

Başqa sözlə ifadə etsək, tapşırıq həqiqi ünsiyyətin hazırlığı və ya hələ də sona çatmamış versiyasıdır. Tapşırıqları uğurlu və sistemli şəkildə həll etməyə qadir olan tələbə, özünü ikinci və ya xarici dildə danışmağa hazırlayır.

M.Brin isə tapşırığa başqa bir tərif vermişdir. Onun fikrincə, tapşırıq asandan çətinə doğru ikinci dilin öyrənilməsi istiqamətində yardımçı vasitədir. M.Brin burada asandan çətinə doğru fikrini xüsui olaraq vuğulamışdır. Bunun səbəbi isə çox aydın görünür. Əgər dilöyrənənlərin bilik səviyyəsini dərindən bilməsək, ona birbaşa çətin tapşırıqlar yönəltsək, bu tələbədə çaşqınlıq və dili öyrənmədə qorxu hissinin yaranmasına səbəb olacaqdır [1, s.187].

Tapşırıq əsaslı dil təlimində dərsin tərtibi məsələləri də maraq doğurur. Dərsin tərtibatı müxtəlif komponentləri əhatə edir. Eyni zamanda mühüm psinsiplərə xidmət etməkdədir. Bu komponent və prinsiplər də öz növbəsində bir sıra metodistlərin marağını cəlb etmişdir. Lakin onların bir çoxlarının tədqiqatı üst-üstə düşmüşdür. N.Prabhu, P.Skehan və C.Villis kimi metodistlərə görə tapşırıqların icrası üç hissəyə bölünür. Birinci hissə hazırlıq mərhələsi olaraq dəyərləndirilir. Çünki burada tələbə və ya dilöyrənənlər əsas tapşırıqları icra etmirlər. Onlar hazırlıq məqsədilə bəzi tapşırıqlar yerinə yetirirlər. Bu zaman dilöyrənənlərə çıxışlarını planlaşdırmaq üçün müəyyən vaxt da verilir. İkinci hissə isə əsas mərhələ hesab olunur. Belə ki, burada artıq təhsilalanlar tapşırıqların icrasını həyata keçirirlər. Bu da öz növbəsində onları qarşılıqlı ünsiyyət qurmağa sövq edir. Burada yalnız ikinci mərhələnin yerinə yetirilməsi zəruri hesab edilir. Çünki ancaq bu mərhələdə ünsiyyət prosesi reallaşdırıla bilir. Üçüncü hissə isə tapşırıqların icrasından sonrakı hissədir. Burada müəllimin rolu böyük olması ilə seçilir, çünki bu mərhələdə müəllim ikinci hissədə olan çatışmazlıqları təhlil edərək, təhsilalanların səhvlərini görməsi, onların bir daha təkrarlanmaması üçün şərait yaradır.

Onu da vurğulayaq ki, hər mərhələ öz spesifik xüsusiyyətləri ilə diqqət çəkir. Birinci mərhələ aşağıdakılardan ibarətdir:

– hazırlıqyönümlü tapşırıqları planlaşdırmaq;

– vaxtın uyğun bölünməsi;

–oxşar tapşırıqların yerinə yetirilməsi.

İkinci mərhələyə isə bunlar daxildir:

– vaxta nəzarət,

– əsas tapşırıqların həlli.

Nəhayət, ən son mərhələdə isə müəllim tərəfindən hesabatlar aparılır, fikir səhvlər üzərində işə yönəldilir.

Yeri gəlmişkən qeyd edək ki, tapşırıq anlayışı tanınmış metodistlər C.Edvards və C.Villisin də diqqətini çəlb etmişdir. Onlar bu terminin araşdırılması ilə məşğul olmuş, daha dərindən tədqiqatlar aparmış və tapşırığa aşağıdakı tərifləri vermişlər:

1. Tapşırıq formayönümlü deyil, məzmunyönümlüdür. Belə ki, burada dilöyrənən hər hansı bir təcrübənin xüsusiləşdirilmiş və ya qəlibləşdirilmiş formasına deyil, tapşırığın məna dəyişiminə, bu mənanı dərk etməyə çalışır.

2. Hər bir tapşırığın özünəməxsus məqsədə istiqamətləndirilməsi vardır. Dilöyrənənlər tapşırığın icrasından əvvəl mütləq şəkildə cari tapşırığın məqsədi ilə tanış olmalı və fikrini mütləq oraya yönəltməlidir;

3. İcrası tamamlanmış tapşırıq digər tələbələrlə paylaşılmalıdır;

4. Tapşırıq dilöyrənən tələbənin dinləmə, danışıq, oxu və yazı kimi bacarıqlarını inkişaf etdirməlidir;

5. Tapşırıq yönümlü dil dərsi məzmun əsaslı olduğundan, daha dəqiq desək, real ünsiyyətə xidmət etməkdən başqa, bəzən dilin qrammatikasının mənimsənməsində də rolu vardır [2, s.19].

Onu da vurğulamalıyıq ki, tapşırıq əsaslı dil təliminin əsas nöqtəsi olan tapşırığın hədəfi dilöyrənənlərdə sərbəst ünsiyyəti aşılamaqdan ibarətdir. Tapşırıq əsaslı dil təliminin əsasını dili qrammatik biliklər ön plana çəkilmədən mənimsəməni nəzərdə tutur. Burada əsas məqsəd kimi dilin mənimsənməsində oxu, yazı, dinləmə, danışıq bacarıqlarının inkişafı ön plana çəkilməklə dilin formasının deyil, məzmunun öyrənilməsini aşılamaqdır. Lakin bu o demək deyil, adı gedən dil təlimi dilöyrənənlərə heç bir qrammatik səriştə aşılamır.

Yeri gəlmişkən, xarici dilin mənimsənməsinə xidmət edən metod və ya yanaşmaların özündə ehtiva etdiyi funksiyalardan asılı olmayaraq, hər bir metodun özünəməxsus sillabusu və ya tədris planı vardır. Tədris planının əsas məqsədlərinə xidmət etdiyi metodun icrasını daha da asanlaşdırmaq daxildir.

Tapşırıq əsaslı dil tədrisinin planı digər metodların tədris planından tamamilə fərqlidir. Bunun da əsas səbəbi tapşırıq əsaslı dil təlimini təşkil edən tapşırıqların müxtəlifliyidir. Bütün tapşırıqlar dilin mənimsənməsində həqiqi ünsiyyətə xidmət etsə də, onların da özünə məxsus növ və ya formaları vardır. Bu dil təliminin bəzi pedaqoji funksiyaları mövcuddur.

Tapşırıq əsaslı dil təliminin tədris planı ilə bağlı bir çox metodistlər araşdırmalar aparmışdır.

Görkəmli metodist D.Nunan vurğulayır ki, tapşırıq əsaslı dil təliminin tədris planı əsasən iki növ tapşırıq üzərində qurulmalıdır.

1. Real ünsiyyət əsaslı və məqsədi dilöyrənənlərə dilin mənimsənməsini aşılayan tədris planı;

2. İkinci dilin mənimsənməsi nəzəriyyəsinin əsasında dayanan pedaqoji- psixoloji tapşırıqlardan ibarət tədris planı [3, s.200].

Yuxarıda adı çəkilən bu tədris planlarının fərqlərinin təhlil edilməsi vacib şərtdir. Real ünsiyyətə əsaslanan tapşırıqların əsas məqsədi dilöyrənənlərin öyrənmə səbəblərindən bilavasitə asılıdır.

Məlumdur ki, ikinci və ya xarici dili öyrənən tələbə bunu real həyatda xarici dildə ünsiyyət qurmaq üçün öyrənir. Bu ehtiyacların vacibliyi, eləcə də müxtəlifliyi tapşırıqların daha effektiv və aydın olmasını şərtləndirir. Bütün bu təhlillər öz əksini mütləq şəkildə sillabusda tapmalıdır.

Pedaqoji tapşırıqların tədris planı tamamilə fərqlidir. Pedaqoji tapşırıqlar ikinci dilin mənimsənməsində psixoloji əsaslara malikdir.

Tapşırıq əsaslı dil təlimində dilöyrənənlərin məqsəd və öyrənmə səbəbləri müxtəlif olduğundan nəyin tədris olunması maraq doğuran məsələlərdəndir.

Bundan əlavə, ardıcıllıq məsələsi də əsas şərtlərdən biridir. Belə ki, ardıcıllıq dedikdə dilöyrənənlərin yerinə yetirəcəkləri məsələlərin asandan çətinə uyğun olaraq sıralanması nəzərdə tutulmaqdadır. Çünki əks təqdirdə tələbədə çaşqınlıq yaranar və təbii ki, sistemsiz öyrənmə uğurzusluqla nəticələnər. Üçüncü və ən mühüm amil isə "necə tədris etmək" məsələsidir ki, bu da metodikanın əsasını təşkil edir. Buna sübut olaraq, görkəmli metodist D.Nunan qeyd edir ki, nəyi və necə tədris etmək xarici dilin mənimsənməsinin əsasını təşkil edir [3, s.45].

Beləliklə, tapşırıq əsaslı dil təlimi metodikasından danışdıqda bunun əsasən iki mühüm prosedurunu mütləq qeyd etməliyik.

İlkin olaraq, tədris planında öz əksini tapan fəaliyyət növlərinin real dərsə necə yönəldildiyini nəzərdə tutan prosedurun adını vurğulamalıyıq. Çünki yalnız bu halda, fəaliyyət növləri dilin mənimsənməsinə yönəldilə bilər. İkinci mühüm şərt isə dilöyrənənlərin və müəllimlərin əməkdaşlıq məsələsidir. Buna uyğun olaraq, əməkdaşlıq fonunda tədris prosesi daha səmərəli nəticələnər.

Adını qeyd etdiyimiz dil təliminin əsasını tapşırıq təşkil edir və xarici dilin mənimsənməsinə yönəldilən vacib metoddur.

Məlum olduğu kimi, bu dil tədrisində dərsin quruluşunda və planlaşdırılmasında əsas komponent tələbələr tərəfindən icrası mühüm hesab edilən tapşırıqlardır. Bu tapşırıqların vacibliyi özünü öyrənilən hər hansı bir ifadənin və ya sözün mənasının düzgün dərk edilməsində, tapşırıq vasitəsilə qavranılan biliyin real həyatda düzgün istifadəsində göstərir.

Görkəmli metodist D.Villisin fikrincə, bu metodun bəzi komponentləri kommunikativ dil tədrisinə əsaslanır.

Bunların bəzilərinə nəzər salaq:

1. Həqiqi ünsiyyətə səbəb olan çalışma və fəaliyyətlər dil öyrənmə üçün əsasdır;
2. Məntiqi tapşırıqlardan ibarət fəaliyyət növləri dilöyrənməni sürətləndirir;
3. Dilöyrənənin istifadə etdiyi dil tədris prosesinə yardım edir [2, s.44].

Xarici və ya ikinci dilin öyrənilməsinin əsas məqsədi dilöyrənənlərdə sərbəst ünsiyyət qurma bacarığına yiyələnməkdən və cari dildə sərbəst danışmaqdan ibarətdir. Tapşırıq əsaslı dil təlimi də öz növbəsində dilöyrənənlərdə kommunikasiyaya səbəb olur və bu da tədris prosesinin daha sürətli və effektiv olmasını şərtləndirir. Bu səbəblər də kommunikativ dil təlimi ilə sözügedən dil təliminin eyni məqsədə xidmət etdiyini sübut edir.

***İşin elmi nəticəsi.*** Xarici dildə bacarıqların formalaşdırılması, vərdişlərin inkişaf etdirilməsi istiqamətində təhsilverənlərin seçdikləri tapşırıq üçün nəzərdə tutulmuş materiallar, onların səmərəlilik dərəcələri mühüm əhəmiyyətə malikdir. Burada ən səmərəli hesab edilən yollardan biri ingilis dilində dil bacarıqlarının kommunikativ yönümlü şəkildə inkişaf etdirilməsidir.

***İşin elmi yeniliyi.*** Sözügedən məqalədə indiyə qədər araşdırılan məsələlər təhlil edilir, tapşırıq əsaslı dil tədrisi ilə bağlı əldə edilən nəticələr konkretləşdirilir, xülasələşdirilərək təqdim edilir.

***İşin tətbiqi əhəmiyyəti.*** Araşdırılan mövzu həm orta, həm də ali məktəb kontekstində ingilis dilinin tədrisində bacarıq və vərdişlərin inkişafı, formalaşdırılması istiqamətində mühüm rola malik olub, əməkdaşlığın, interaksiyanın təmin edilməsi baxımından faydalı ola bilər.

## Ədəbiyyat

*İngilis dilində*

1. Breen, M. The evaluation cycle for language learning tasks. In R. Johnson (Ed.), The Second Language Curriculum Cambridge: Cambridge University Press, – 1989, – p. 187-206.
2. Edwards, C. Teachers Exploring Task in English Language Teaching / C.Edwards, J.Wills. – Hampshere Palgrave Macmillan, – 2005.
3. Nunan, D. Designing Tasks for the Communicative Classroom / D.Nunan, – Cambridge: Cambridge University Press, – 1989, – 211p.
4. Nunan, D. Task-based Language Teaching / D.Nunan, – Cambridge: Cambridge University Press, – 2004, – 218 p.

*İnternet resursu*

5. https://researchgate.net


**N.M.Aliyeva**

**The Methodology of Using Task-Based Language Teaching in English at Junior Stages of High Schools**

***Summary***


The article deals with the task-based language teaching at high schools. It is one of the modern approaches in language learning.

Task-based language teaching plays great role in foreign language teaching. One of the beneficial way of this named method is to improve abilities of learners in practical contexts. at that time learners focus on real world situations and develop language skills.

In its turn, these tasks are considered to be appropriate and relevant to the daily situations. Students can extend their language competence by means of reading, writing, listening, speaking skills, at the same time they may have an opportunity of using interactive tasks.

So, the called method suggests wide range of opportunities of extending and improving the quality of teaching processing.


***Key words:*** *task, learning, integration, competence, method*

**Н.М.Алиева**

**Методика использования обучения языку на основе заданий по английскому языку на младших курсах высших учебных заведений**

***Резюме***


В статье рассматривается один из современных подходов изучению языка – целевое обучение языку.

Изучение языка на основе заданий играет важную роль в процессе овладения языками. Одним из наиболее полезных аспектов упомянутого метода обучения является приучение учащихся к практическому контексту. В это время учащиеся развивают свои языковые навыки, сосредотачиваясь на реальных задачах.

Эти выводы, в свою очередь, считаются уместными и актуальными для повседневных ситуаций. Здесь учащиеся имеют возможность расширить свои языковые навыки посредством осмысленного чтения, письма, аудирования, разговорной речи и в тоже время с помощью интерактивных заданий на этом фоне. Таким образом, указанный метод обучения открывает широкие возможности для повышения эффективности обучения.


***Ключевые слова:*** *задание, изучение, интеграция, компетенция, метод*

*Rəyçi: ped.f.d. J.Mehrəliyeva*

*Redaksiyaya daxil olub: 30.04.2025*